Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Narkomaniya əsrin bəlasıdır

**Narkomaniya əsrin bəlasıdır - mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Könül Səmədzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Narkomaniya əsrin bəlasıdır – Narkomaniyaya qarşı mübarizə mövzusunda** mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**



## Giriş

Günümüzün aktual problemlərindən biri də insan oğlunun narkomaniya kimi bir bəlanın qarşısında aciz qalmasıdır. Bəşəriyyəti narahat edən bu qlobal problemlə bütün dünya xalqları mübarizə aparır. Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı törədilən cinayətlər hazırda dünya ictimaiyyəti qarşısında duran ən mürəkkəb, sosial-iqtisadi və təbii cəhətdən ən təhlükəli problemdir.

Narkomanlıq xroniki intoksikasiya doğuran, narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və ya fiziki asıllılıqla, yaxud da müxtəlif davranış pozuntuları ilə ifadə olunan xəstəlikdir. Narkomaniya o xəstəliklər qrupuna aiddir ki, bu zaman narkotik maddəyə qarşı psixi və fiziki asıllılıq yarandığından, yüksələn dozada narkotik maddə qəbuluna meyl artır. Narkomaniyanın ümumi xarakteriktikası narkotikə qarşı orqanizmin reaktivliyinin dəyişməsi, yəni narkotikə qarşı potoloji meylin yaranmasından, narkotikin orqanizmə ilkin təsiri

xüsusiyyətlərinin dəyişməsindən və narkotik maddə qəbul etdikdə asılılıq sindromunun əmələ gəlməsindən ibarətdir.

Narkomaniya özü əsas 3 sindromdan ibarətdir ki, bunlar birlikdə böyük narkomanik sindromu təşkil edir. Bu sindromlar narkomaniyanın növündən asılı olaraq, müxtəlif vaxtlarda təzahür edir və xəstəliyin inkişafında eyni vaxtda müşahidə olunur. Xəstəliyin yaranmasının əsas səbəbləri isə aşağıdakılardır.

İnsanların psixi cəhətdən yetkin doğulmaması, bəzi insanlarda psixi, bəzilərində isə emosional zəifliyin olması xəstəliyin yaranmasının ilkin səbəblərindəndir. Ailədə və ya nəsildə hər hansı bir şəxsin narkomaniya ilə məşğul olması gələcəkdə onun irsiyyətində dəyişikliklərin baş verməsi ilə nəticələnir. Belə insanların övladları epilepsiya, ağıl zəifliyi, fiziki çatışmazlıqla doğulur. Bir sözlə, genetikada dəyişikliklər yaradır.

Digər tərəfdən, narkomaniya dinindən, dilindən, cinsindən, irqindən asılı olmayaraq, hamı üçün eyni dərəcədə təhlükəlidir. O, cinayətkarlığın, zorakılığın və korrupsiyanın çiçəklənməsinə şərait yaradır, QİÇS-in (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) surətlə artmasına təkan verir, ailələri dağıdır, cəmiyyəti sosial partlayışa sürükləyir, sağlam gənc nəslin yetişməsinə mane olur.

Narkomaniyaya düçar olan insanlar əmək qabiliyyətlərini get-gedə itirirlər. Onlar yalnız bir şeyi düşünür: hansı yolla olursa-olsun, narkotik maddəni əldə etmək. Bu zaman narkoman öz arzusuna çatmaq üçün şərəf və ləyaqətinin alçalmasına belə göz yumur, ailəsini çıxılmaz vəziyyətə salır, əgər uşaqlar varsa, onların əxlaqına və mənəvi keyfiyyətlərinə

mənfi təsir göstərir. Belə insanlar vaxtından tez həyatdan köçürlər. Burada daha bir faxt da ortaya çıxır.

Bildiyiniz kimi, narkomaniya cinayətkarlıqla bağlı olan hadisədir. Və bu da öz növbəsində 3 mərhələyə bölünür. Birincisi, narkotik maddə əldə etmək məqsədilə pul əldə etmək üçün zorakılıqla və tamah niyyəti ilə müşayiət olunan ağır cinayət törədilir. İkincisi, cinayətlər çox zaman narkotik maddələrin bilavasitə təsiri altında törədilir. Nəhayət, üçüncüsü, narkomaniya ilə cinayətkarlığın əlaqəsi narkotiklərin qanunsuz dövrüyyəsi ilə bağlı olan hüquqa zidd hərəkətlərin edilməsi ilə ifadə olunur.

## Bölmə II
## Tədbirlərin keçirilməsi

Bəşəri bəlaya çevrilmiş narkomaniya "ağ ölüm"dür, həyatdan üz çevirməkdir. "Narkomaniya" və "ölüm" sözləri bu gün insanların təsəvvüründə sinonim sözlərə çevrilib. Dünyada geniş yayılmış narkomaniyaya qarşı mübarizə aparmaq lazım olduğu qədər də asan deyil. Hər şeyin gizlində, inanılmaz adamların ailəsində və yaxınlarında baş verdiyini eşidəndə təəccübünü gizlədə bilmirsən.

Bildiyiniz kimi, yeniyetmələrin narkomaniya xəstəliyinə düçar olması hazırkı dövrün ən aktual məsələsidir. Birincisi, ona görə ki, narkotiklərdən ilk istifadənin əksər halları məhz bu yaş dövründə baş verir, ikincisi isə, narkotik vasitələrin təsiri inkişafda olan orqanizmə məhvedici təsir göstərir. Narkomaniya ilə mübarizədə kitabxanaların rolunu xüsusilə qeyd etmək lazımdır. Kitabxanaların narkomaniyaya qarşı apardığı təbliğat çox güclü vasitədir. Kitabxanalarda narkomaniya, narkobiznes

və ona qarşı mübarizə mövzusunda tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

Ulu öndər Heydər Əliyev 26.08.1996-cı il tarixdə narkotok maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə aparmaq üçün fərman və sərəncam imzalayıb. Sərəncama əsasən, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirlikləri kompleks maarifləndirici və profilaktik tədbirlər görməlidirlər.

Həmçinin Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 iyun 2013-cü il tarixli 2966 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Dövlət Proqramının məqsədi ölkədə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, cəza tədbirlərinin səmərəliliyinin öyrənilməsi üçün elmi və praktik araşdırmaların aparılması, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsindən və digər geniş miqyaslı məsələlərin həllindən ibarətdir.

İnsanların sağlamlığını əlindən alan"ağ ölüm"ə qarşı mübarizə həmişə diqqət mərkəzində olub. Elə bu baxımdan da respublikamızın hər bir təhsil ocaqlarında, mədəniyyət

müəssələrində müntəzəm olaraq tez-tez tədbirlər keçirilir, təbliğat xarakterli görüşlər, müzakirələr aparılır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da hər il olduğu kimi “Ağ ölüm” lə bağlı müxtəlif cür tədbirlər planı hazırlanır. Tədbirlər planına əsasən kitabxanamızda ilk öncə narkomaniya ilə bağlı sərgilər təşkil olunur. Sərgilər müxtəlif cür ola bilər. Foto sərgi, kitab sərgisi, rəsm sərgisi və s.

Kitabxanamızda təşkil olunan “Ağ ölüm”ə “yox” deyək! adlı kitab sərgisini  sizlər üçün təqdim edirik.

Başlıq: “Ağ ölüm”ə “yox” deyək!

Kitabların nümayişi

Sağlam, narkotiksiz həyat seç!”,

“Övladlarınızı narkotiklərin oyuncağına çevrilməkdən qoruyun!” adlı maarifləndirici bukletlərin nümayişi

Dövrü mətbuatda nəşr olunan məqalələrin kartotekası

Sitat:

Hər bir ölkədə narkomaniyanın qarşısının alınması üçün çox ciddi təşkilati, profilaktik tədbirlər görülməli, lazımi izahat işi aparılmalı, səhiyyə, təbliğat orqanları narkomaniyanın insan üçün, bəşəriyyət, cəmiyyət üçün nə qədər təhlükəli, faciəli olduğunu hərtərəfli açıb göstərməli və insanları bu xəstəliyə qurşanmaqdan çəkindirməlidirlər. İnsanın sağlamlığını qorumaq, onu fiziki əzablardan xilas etmək mühüm, xeyirxah işdir.

**Heydər Əliyev,**

*Ümumilli lider*

“Hər kəs pis iş gördükdən və ya (günah etməklə) özünə zülm etdikdən sonra Allahdan bağışlanmağını diləırsə, Allahın bağışlayan və mərhəmətli olduğunu görər!”

**Qurani-Kərim, “Nisa” surəsi, ayə 110**

“Bir müsəlman qardaşı düz yola hidayət etmək savabdır.”

**Qurani-Kərim**

Narkotik-bütün çirkinliklərin “ata”sıdır.
Narkomaniya-ölümü pulla satın almaqdır.

**Asif Kəngərli**

Bəşəriyyətin faciəsi olan narkomaniya ilə mübarizə metodlarından biri də “Narkomaniyaya yox deyək!” adlı rəsm sərgisidir. Kitabxanamızda təşkil olunan sərgiyə lisey, gimnaziya, orta məktəb şagirdəri dəvət olunurlar. “Narkomaniyaya yox deyək! adlı rəsm sərgisinin nümunəsini veririk.







Narkotikə
yox
deyək!


Korlanmış HəYATI YOX
Rəngarəng DÜNYANI Seçə


NARKOMANİYAYA SON


Narkotikə yox
deyək!


ÖLUMƏ GEDƏN YOL!


Gözəl həyat istəyirsinizsə
narkomaniyaya
son deyək

## Kitab sərgisi












Narkomanlığın tarixi çox qədimdir. Hələ eramızdan əvvəl narkotik tərkibli vasitələr haqqında məlumatlara yunan, Roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlmək mümkündür. Narkotik tərkibli bitkilərdən müalicə məqsədi ilə istifadə olunması uzaq keçmişdə olduğu kimi, müasir dövrümüzdə də aktualdır. İnsan orqanizminə, səhhətinə, sağlamlığına, mənəviyyata sarsıdıcı zərbələr vuran narkotiklərə alüdəçilik bu gün olduğu kimi qədim zamanlarda da ən xoşagəlməz, ən çirkin və ikrahedici vərdişə çevrilmişdi. İyirminci yüz illiyin sonunda isə narkomaniya fiziki mənada ayrı-ayrı xalqların genofonduna sarsıdıcı zərbələr vuran ümumbəşəri bəlaya çevrilmişdi. Onun qarşısının alınması böyük çətinliklər, külli miqdarda xərclər bahasına başa gələn son dərəcə neqativ bir amil olmaqla yanaşı, digər tərəfdən də narkobaronların narkotiklərin qanunsuz dövriyyəsindən yüksək gəlir əldə etməsi üçün bir vasitə olmuşdur.

Narkomaniyaya qarşı mübarizə hər birimizin vətəndaşlıq borcudur. Bununla bağlı ictimai qınaq gücləndirilməlidir.

Elə bu məqsədlə də respublikamızın bir çox təhsil ocaqlarında, rayonlarda təbliğat xarakterli tədbirlərin keçirilməsi vacibdir.

Bildiyiniz kimi, Azərbaycanda narkomaniya ilə mübarizə hər gün daha da gücləndirilir.

Cəmiyyətdə "ağ ölüm" kimi qəbul edilən, bəşər övladının baş bəlasına çevrilən, əhalinin, daha doğrusu, gənc nəslin bir qismində maraq doğuran, aludəçilik yaradan, müalicəsi olduqca çətin və uzun müddət tələb edən, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran narkotik vasitələr, onların qanunsuz dövriyyəsi, istifadəsi, satışı,

ümumiyyətlə desək, narkomanlıq ən ağrılı problemlərdən, qorxulu vərdişlərdən birinə çevrilib.

Bu xəstəlik cəmiyyət üçün çox qorxulu, təhlükəli, insanda sonsuz problemlər yaradan, onu lazımsız və keyfiyyətsiz bir məxluqa çevrilən xəstəlikdir. Narkotikdən asılılıq ağır xəstəliyə-narkomaniyaya gətirib çıxarır. Narkotik maddələr insan sağlamlığına bərpaedilməz ziyan vurur, fiziki qüvvələri tükəndirir, bədənin çəkisini birdən-birə azaldır, ümumi zəhərlənmə baş verir və beləliklə də, keçici xəstəliklərin surətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni iynədən istifadə edildiyindən narkomanlar arasında bir çox xəstəliklərə tutulan insanlar çoxdur.

Narkotik maddə alverçiləri heroin və kokainə yuyucu toz və ya şəkər tozu qatıb satırlar, ona görə də narkomanda şəkər diabeti tez inkişaf edir. Əgər heç bir qarışığı olmayan narkotik maddə qəbul olunarsa, zəhərin gücü, təsirindən o saat həmin adam ölə bilər. Ən dəhşətlisi odur ki, bir neçə dəqiqə ərzində baş-beyin zədələnər və bununla da tədricən şikəstlik əmələ gələr. Belə halda adam düşünmək, hərəkət etmək, reaksiya vermək, qabiliyyətini itirir, danışmaq və müxtəlif əşyalardan istifadə imkanından məhrum olur.

Bütün bu bəlaları ilə gəncliyimizin həyat tərzinə, ailə-məişət davranışlarına başucalığı gətirməyən narkomaniyaya və narkobiznesə qarşı mübarizə Azərbaycan hökumətinin prioritet istiqamətlərindəndir.

Ölkəmizdə narkomaniyaya və narkobiznesə qarşı mübarizəni gücləndirmək, insanların sağlamlığını, ailələrin xoşbəxt və uğurlu gələcəyini məhv edən bu bəlaya qarşı bütün

zəruri tədbirlərin vaxtlı-vaxtında həyata keçirilməsi həmişə diqqət mərkəzindədir.

Narkomaniya və narkobiznesə qarşı mübarizə mövzusunda yeniyetmə və oxucular arasında mühazirələrin keçirilməsi vacibdir. Bu zaman mövzunun adı elə seçilməlidir ki, oxucularda maraq yaratsın. Məsələn: "Ağ ölümə qarşı mübarizə et!", "Zərərli vərdişlər və ondan törənən fəsadlar", "Bəşəriyyətin düçar olduğu bəla", "Gəlin, gələcəyimizi qoruyaq!", "Narkomaniyanın genofondumuza gətirdiyi fəsadlar", "Narkomaniya və acınacaqlı həyat" və s.

XXI əsrin bəlalarından biri narkomaniya! Narkomaniyanın cəmiyyətə, ailələrə vurduğu ziyan isə günü-gündən artır. Elə məhz boşanmaların, ailədaxili şiddətin, qətllərin çoxu da narkomaniya ilə bağlıdır. Baxmayaraq ki, istər dünyada, istərsə də ölkəmizdə narkomaniya ilə ciddi mübarizə aparılır.

Qeyd etmək lazımdır ki, respublikamızda da narkomaniyaya meyl get-gedə artmaqdadır. Bunu hüquq-mühafizə orqanları tərəfindən aşkarlanan faktların artımı göstərir. Təbii ki, narkotik vasitələr respublikamıza, o cümlədən Bakıya, əsasən nəqliyyat vasitələrilə gətirilir. Narkomaniyaya qarşı mübarizə işində hamı kimi bizim də üzərimizə bir çox vəzifələr düşür. Bunu bizdən həm vicdanımız, həm də Azərbaycan prezidenti cənab İlham Əliyev tələb edir. Onun narkotik vasitələrin qanunsuz dövriyyəsilə əlaqədar məlum fərmanı və bu fərmandan irəli gələn müddəalar bu gün hər bir hüquq-mühafizə orqanı əməkdaşından narkomaniyaya qarşı mübarizədə prinsipiallıq göstərmək, bu bəşəri bəlanın daşıyıcılarına qarşı amansız olmağı tələb edir. Biz hər birimiz narkotik maddələri həm satanlara, həm də ondan istifadə

edənlərə qarşı barışmaz olmaqla yanaşı, qarşımıza məqsəd qoymuşuq ki, orta məktəblərdə, texniki-peşə məktəblərində, lisey və gimnaziyalarda və digər təhsil ocaqlarında şagirdlər və yeniyetmələr qarşısında “ağ ölüm”ün insan üçün, onun sağlamlığı üçün eləcə də hər bir fərdin mənsub olduğu nəslin davamçısı olmaq üçün nə qədər təhlükəli və faciəvi olduğunu aşkarlayan mühazirələrlə çıxış edək, gənclərimizi narkomaniya adlanan bəşəri bəlaya qarşı qorxulu meyllərdən uzaqlaşdırmağa çalışaq.

Narkomaniya ilə mübarizədə kitabxanaların rolu adı altında keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Tədbirə bir çox qonaqlar dəvət olunur. Ali və orta məktəb tələbə və şagirdləri, müəllimlər, yeniyetmələr müzakirədə iştirak edirlər. Kitabxanaçı bəşəriyyətin faciəsi olan narkomaniyanın qlobal böhran və ona qarşı mübarizə haqqında nəşr olunmuş bir çox kitabların müzakirəsini keçirə bilər.



Bu gün biz sizinlə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunda yer almış tanınmış həkim, istedadlı yazıçı Asif Kəngərli "Bəla" kitabının müzakirəsinə yığışmışıq. İlk əvvəl kitabda müəllifin qələmə aldığı sitatı sizin nəzərinizə çatdırmaq istərdik. "**Yorulmadan, usanmadan çalışdım, hamını silkələyən, ayıldan kitab-abidə yaratdım. Bu kitab mənim bu dünyam üçün başucalığım, o dünyam üçün savabımdır".**

Kitabda tanınmış həkim, istedadlı yazıçı Asif Kəngərlinin narkomaniya, alkoqolizm mövzusunda ilhamla qələmə aldığı pyes və kekayələri toplanıb. Kitabda bu problemlər bədii-sənədli, elmi-tibbi və dini prizmadan çox gözəl şərh olunub.

Müəllifin bu pyesi müasir Azərbaycan dramaturgiyasının bəlkə də şah əsəridir. Kitabda hadisələr məharətlə qələmə alınıb, muncuq kimi "sapa düzülüb", elə ona görə də müəllifin əsərləri bu qədər real, inandırıcı, təsirli alınıb. Müzakirəsini keçirdiyimiz kitabın dili şirin, sadə, zəngin, axıcı və yığcamdır. Bu keyfiyyətləri isə bir yerə yığa bilmək yazıçıdan hünər tələb edir. Oxucu nə əlindəki kitabdan, nə də onun təəssüratından ayrıla bilmir…

Əziz oxucu! Gəlin ilk əvvəl kitabın müəllifi yazıçı Asif Cəlil oğlu Kəngərli haqqında məlumatlanaq. Asif Cəlil oğlu Kəngərli 1954-cü ildə Naxçıvan şəhərində anadan olub. Orta məktəbi 1971-ci ildə bitirib. Ukraynadakı hərbi xidmətini başa vurduqdan sonra A.Kəngərli 1975-81-ci illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə fakültəsində təhsil almışdır. Sonra dogma Naxçıvana qayıdaraq müxtəlif tibb müəssisələrində çalışmışdır.

Bədii yardıcılığa 48 yaşında başlamış müəllifin ilk əsəri "Bəla" pyesidir. Bildiyiniz kimi, bu kitab oxucular arasında çox böyük rezonans və təqdir qazanmışdır. Qeyd etmək lazımdır ki, "Bəla" pyesinin teatr tamaşası anşlaqla keşmiş, görünməmiş həyəcan yaratmış, uzun illər hafizələrdən silinməmişdir.

Asif Kəngərlinin qələmə aldığı "Bəla" kitabı 2014-cü ildə Bakı-Mütərcim nəşriyyatı tərəfindən çap olunmuşdur. Kitabda bir çox sitatlar, pyes və hekayələr yer alıb.

Dilindən, dinindən, işindən, peşəsindən və yaşından asılı olmayaraq, hamıya lazım olan kitab sənin həyatını dəyişdirə bilən kitabın.

Bir dəfə azdi, iki-üç dəfə oxu, öyrən, dostlarına danış. Bu kitabı çox istədiyin yaxınlarına bağışla, bu yolla onları əyri yoldan çəkindirməyə çalış, savab qazan.

Məlumatlı olmaq silahlı olmaq kimidi; indi sənə biri Zülfüqar, o biri Misri qılınc qüdrətində olan "Bəla" və "Zəhrimar"la silahlanmaq vaxtıdı. Haydı, çək "qılıncını" "düşməni" yaxına qoyma!

Sən kimin tərəfindəsən-Allahın, yoxsa Şeytanın? Siqaret çəkmək, içki içmək, narkotik qəbul etmək Allahın yolundan çıxmaq deyil, bəs nədir?

Sənin üstünə üçbaşlı Əjdaha hücum çəkmək istəyir. Əjdahanın bir başı Siqaret, ikinci başı Alkoqol, üçüncü başı isə Narkotik adlanır. Əgər sən siqaret, alkoqol, və narkotikdən uzaq olsan, onda Əjdahaya qalib gələ bilərsən, yox, zəiflik etsən, yəqin bil ki, o Əjdaha səni udacaq!

"Bəla"nı oxusan, bəladan, "Sər suyu"nu dərk etsən, şərdən, "Zəhrimar"dan xəbərin olsa zəhərdən uzaq olar,

“Qəlyan” çəkməzsən, hekayələri keçsən, “Ömürlük dərs” alar, “Məntiq”lə düşünər və heç kimin “Tələ”sinə düşməzsən. Onu da bil ki, bu kitab sənə uca “Allahın bəxşişi”di. Bu kitab evdə valideyinin, məktəbdə müəllimin, tədbirdə mühazirəçinin, orduda komandirin, məclisdə mollanın əlində kəsərli “silahdı”, söz silahı…

“Şər suyu”nu “Zəhrimar” bil ki, “Bəla”ya düşməyəsən.

Siqaret, içki və narkotik mövzusunda dünyanın ən maarifləndirici, ibrətamiz kitabı-gənclərin kitabı!

Bu kitab deyil, başdan-ayağa haraydı, haray. Burada həm haray var, həm də nicat yolu.

Bu kitab hansı evə getsə, hansı qəlbə girsə, onu təmizləyər.

Yazmadım rəfdə qalım,
Yazdım ki, səfdə qalım.

Mən “xalq yazıçısı” deyiləm, amma “xalqın yazıçısıyam”,-deyə bilərəm.

Yorulmadan, usanmadan çalışdım, hamını silkələyən, ayıldan kitab-abidə yaratdım. Bu kitab mənim bu dünyam üçün başucalığım, o dünyam üçün savabımdır.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında əsrin ən böyük bəlası 26 iyun – Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü ilə əlaqədar Məndən söyləməkdir, sizdən… adlı maarifləndirici söhbət keçirilir.

Həyatda olduğu kimi bu aləmdə də hər şey sadədən mürəkkəbə, azdan çoxa doğru gedir: adam əvvəlcə siqaret çəkir, sonra nəşə çəkir, axırda iynə vurur…Narkotikə tərəf gedən o bəlalı yol məhz siqaretdən başlayır. Ümumdünya Səhiyyə Təşkilatı bir araşdırma aparıb: onlar siqaret çəkməyə başlayan gəncləri on-on ayırıb yollarını izləyiblər. Məlum olub ki, hər

onluğun beşi yalız siqaret çəkməklə kifayətlənib, ikinci beşliyin isə ikisi bir-iki dəfə, ikisi beş-on dəfə, biri isə daimi nəşə çəkən xəstəyə-nəşəxora çevrilir. Və həmin xəstə beş-altı ildən sonra ağır narkotikə-heroinə keçir. İş bununla da bitmir, o narkoman əvvəlcədən tanıdığı dostlarını, yoldaşlarını, qohum və qonşularını heroinə cəlb etməyə çalışır. Nəticə isə çox acınacaqlı olur, bunu siz özünüz də təssəvvürünüzdə canlandıra bilərsiniz. Deməк, bu günün siqaret çəkəni sabahın potensial narkomanı deməkdir. Ona görə də siqaret çəkməyə sadəcə siqaret çəkmə kimi yox, narkomaniyanın başlanğıcı kimi baxmaq və ona qarşı mübarizə aparmaq lazımdı-başqa yolumuz yoxdur!

Əvvəllər narkotikin nə olduğunu bilməyən bir gənc, deyək ki, heroin qəbul etməyə başladı. Gəlin görək, bu zaman narkotik maddə həmin gənci nələrdən məhrum edir? Mənə görə, o adam beş şeydən: əvvəla can sağlığından, pul-paradan, yaxşı addan, sonra bu dünyasından və o dünyasından məhrum olur.

1.O, hər şeydən qabaq, insanın  sağlamlığını əlindən alır, onu ağır xəstəliklərə düçar edir. Narkomaniya-psixosomatik xəstəlik sayılır, yəni bu həm başın, həm də bədənin xəstəliyidir. Beləsinin nə sağlam canı, nə də sağlam ruhu ola bilər.

2. Narkotik maddə bahadır, onu almaq çoxlu pul tələb edir. Daim artan bu tələbatı ödəmək üçün narkoman pula gedən nəyi varsa, satır və həmin pulu narkotikə sərf edir. Nəticədə, əvvəllər zəngin olan bir şəxs sonda var-yoxdan çıxır, müflisləşir və borca düşür…Narkomaniya-öz ölümünü pulla satın almaqdır.

3. Hər kəs istəyər ki, yaxşı adı olsin, “çünki yaman addan ölüm yaxşıdır.” Narkoman kim olursa-olsun, hansı ad-sana, fiziki və maddi imkanlara sahib olursa-olsun, onun adına bir damğa vurulmuş olur: “narkoman”. Və o, bu ləkəli adla yaşamaq məcburiyyətində qalır.

4. Narkotik maddə insanı bu dünyanın nemətlərindən məhrum edir: narkoman ailə və dostlarından uzaqlaşır, həyatdan, təbiətdən, yeyib-çməkdən, gəzməkdən, işi, məşğuliyyəti, hobbisi və sairdən zövq almır. Onun yalnız bir arzusu olur: nə olursa-olsun heroin tapmaq və iynə vurmaq! əslində narkoman heç o maddədən də həzz ala bilmir, yalnız "ağrıya vurur", amma buna baxmayaraq güclü meylin də qarşısında duruş gətirə bilmir. Yəni "həm Əli aşından olur, həm də Vəli aşından".
5. Narkotik maddə insanı o dünyanın nemətindən, yəni cənnətdən məhrum edir, çünki Allahın buyurduğu doğru yoldan sapıb Şeytana qulluq edən bir bəndəni Allah öz cənnətinə niyə qəbul etsin?
Narkotik maddə, yaxud alkoqoldan sui-istifadə etmək insanın sanki qibləgahını dəyişdirir, o Kəbəyə deyil, artıq Şeytana səcdə qılır, bütün çirkinliklər də elə buradan qaynaqlanır. Əgər içki bütün çirkinliklərin anasıdırsa, onda narkotik də onun atasıdır".
Yer üzündə ikinci elə bir şey yoxdur ki, narkotik maddə qədər insanı hər şeydən belə total şəkildə məhrum edə bilsin.
Vaxtilə sağlam olan bir gəncin narkotikə uyması bir əsgərin itirilməsi, yaxud bir qızın "boş" qalması deməkdir. Əgər o qız ailəlidirsə, onda o ailənin boşanma təhlekəsi anbaan artır. Ölkəmizdə ailəli narkomanlardan törəyən, müxtəlif fiziki və psixi qüsurlu uşaqların problemləri də əmələ gəlir. O uşaqlar böyüdükcə problemləri artır və get-gedə böyüyür…
Tədbirdə iştirak edən qonaqlara narkomaniya ailə mübarizə mövzusunda bir neçə sual təqdim olunur ki, iştirak edən qonaqlar bu cuallara cavab verə bilərlər.
Sualları təqdim edirik:

Narkomaniya haqqında nə bilirik?

“Narkomaniya” yunan sözü olub, “bihuşolma”, “donub qalma” mənasını bildirir.

1. Narkotik maddə qəbulunun doğurduğu tibbi problemlər nədir?
2. Bəs sosial problemlər?
3. Narkomaniya kriminal aləmə necə təsir edir?
4. Narkomanlarda şəxsiyyət və əxlaq necə dəyişir?

Təbii fəlakətlərə, siyasi-iqtisadi problemlərə, hər gün bir az da qızışan müharibə ocaqlarına tab gətirməyib “can verən” dünyanın bu gün ən böyük bəlalarından birincisi narkomaniyadır. Bu bəlanın müasir dünyada necə yaranması, yayılması artıq insanları maraqlandırmır, ancaq ondan necə qurtulmaq olar fikri bütün polemikaların ana mövzusudur. Bu problemin qarşısını almaq üçün planlar cızılır, yollar axtarılır.
Narkomanlıq və narkotizm dünya birliyi qarşısında duran ən mürəkkəb problemlərdən biridir. Bu, həm sosial-iqtisadi, həm də tibbi cəhətdən ən təhlükəli bəla hesab edilir. Mütəxəssislər bu qənaətə gəliblər ki, narkomaniya cəmiyyətin gələcəyi üçün iki böyük təhlükənin daşıyıcısıdır. Birincisi, narkomaniya ilə xəstələnmiş şəxs özünün, ailəsinin, nəhayət, cəmiyyətin həyatında arzuolunmaz mənfi dəyişikliklərə gətirib çıxarır. İkincisi, cinayətkarlığın, zorakılığın, o cümlədən işsizliyin, təhlükəli xəstəliklərin yaranmasına səbəb olur.

Bəli yuxarıda dəfələrlə qeyd etdik ki, günümüzün aktual problemlərindən biri də insan oğlunun narkomaniya kimi bir bəlanın qarşısında acız qalmasıdır. Bəşəriyyəti narahat edən bu qlobal problemlə bütün dünya xalqları mübarizə aparır. Həmçinin respublikamızda narkomaniyaya meyilliliyi aradan qaldırmaq məqsədilə bütün təhsil müəssələrində geniş maarifləndirici tədbirlər daha tez-tez keçirilir.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında daim bu mövzu haaqında diskusiyalar, müzakirələr, maarifləndirici söhbətlər keçirilir. Bildiyiniz kimi, uşaq kitabxanası olaraq, bizim öhdəmizə daha çox məsuliyyət düşür. Çünki, biz məktəb, lisey, gimnaziya, ali məktəb tələbələri ilə əlaqəli işləyirik. Ona görə də bu işdə fəal iştirak etməli, maarifləndirmə işlərinə daim kömək göstərməliyik. Yeniyetmələri mənəvi cəhətdən yoxsullaşmağa qoymamaq, onları cəmiyyət üçün layiqli şəxsiyyətlər kimi yetişdirmək mövzusunda söhbətlər aparmalıyıq. Hər kitabxanaçı bu mövzular haqqında geniş bilməli, oxucuları düz yola yönəltməlidir.

Elə bu məqsədlə 26 iyun Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü ilə əlaqədar kitab icmallarının, kitab müzakirələrinin, maarifləndirici söhbətlərin, bu işlə bağlı Narkoloji müəssələrin həkimləri ilə görüşlərin təşkili daha vacibdir. Oxucuların formalaşmasına, dünyagörüşlərinə və əxlaq tərbiyyələrinə böyük təsir göstərən həkim Asif Kəngərlinin kitablarına müraciət etmişik.

Kitablarının birində müəllif oxucusuna müraciətdə bildirir ki, işi ilə əlaqədar ona çox müraciətlər olur. Narkotikin bəlasına düşən, alkoqolun gətirdiyi əzablarla əlləşən, tütünün zəhərini udan dərdli, xəstə və bədbəxt insanlar ya yanıma-iş yerimə gəlir, ya da mənə zəng edirlər. Xəstələri çox vaxt ya yaxın qohumları, ya da dostları gətirirlər. Tək-tək hallarda narkoman özü "öz ayağı" ilə gələr. Bir gün çoxdan tanıdığı bir nəfər "öz ayağı" ilə yanına gəlib dərdini danışır:

-Doktor, mən neçə il idi ki, adını demək istəmirəm-bir nüfuzlu idarədə işləyirdim. İşim də çox yaxşı idi. Altımda "slujebni" maşınım, işim, gücüm, pulum, param. Əlim üstə əl yox idi!

Mənim bir sözümlə bağlı qapılar açılır, min dollarlıq işi bir telefon zəngi ilə həll edirdim.

Sonra işimi dəyişdim, kommersiya ilə məşğul oldum. Bu işim ondan da yaxşı oldu.  Nə başınızı ağrıdım, dörd ildə yeddi maşın dəyişdim, hamısı da xarici maşınlar. Özümə şəhərin mərkəzində villa tikdirdim,dükan aldım, firma açdım. Gör nə aləm idi ki, "krupnı partiy" sələmə pul verirdim. Günümü də keflə keçirirdim: yemək-içmək, gəzmək, sauna...Sonra başladım qumar oynamağa, bala-bala nəşə çəkməyə. Heç ağlıma da gəlməzdi ki, mən iyna vuram! İynə vuranlardan zəhləm gedirdi ki, kişi saymırdım onları. Hələ iki-üç nəfəri narkotik üstə işdən də qovmuşdum. İşə bax ki, axır da özüm narkoman oldum!
Nəyim var idisə, hamısını, "mal"a verirdim. İndi pis gündəyəm, doktor , cibimdə siqaret pulum da yoxdur. Məni görən tanımır, yarı canım qalıb:110 kilodan 70 kiloya enmişəm. Arvadımın əsəbləri korlanıb, onda tez-tez ürəkgetmə tutmaları olur. Özüm də ki, hamının yanında biabır olmuşam! Dünən az qala ölmüşdüm, bir dostum qurtardı, o olmasaydı, getmişdim! İndi gəlmişəm məni müalicə edəsiz, çünki bilirəm ki, bu işin axırı yoxdu! Özü də aninim yolla, adımın kitab-dəftərə düşməyini istəmərəm. Bəli, əziz oxucu! Bu hekayətdəki şəxs kompeks müalicə alıb evinə getdi. Bir ildən sonra, yenə yanıma gəldi. Dedi: Doktor, mən müalicədən sonra, dediyiniz kimi, üç ay evə girdim, evdən bayıra çıxmadım. Dostlarla əlaqəni kəsdim. Üç aydan sonra başladım işləməyə...O vaxt utanmışdım sizə deməyə 400 min dollarlıq villanı mən 110 minə satmışdım. Əlimə pul gələn kimi həmin villanı 120 minə bir dava-qışqırıqla geri aldım, çünki o evdə gözüm vardı. İndi borclarımın çoxunu vermişəm, azı qalıb. Allah qoysa, qalanlarını da verəcəm. Mən o kökə düşməyimin səbəblərini çox götür-qoy eləmişəm.

Düşündüm ki, "bəlkə, pul məni qudurtmuşdu, ya bəlkə, kiməsə pislik eləmişəm, Allaha xoş getməyib?" Sizdən yaxşı olmasın, bir dostum var, onun dediyi sözlər mənə yaman təsir etdi! Müalicədən sonra həmin o dostum məni görməyə gələndə üzümə "qırmızıca" belə dedi: "acığın gəlməsin, sənin günahın çoxdu: dinimizdə sələmə pul vermək günahdı-sən veribsən, qumar oynamaq, narkotik qəbul etmək, araq içmək qadağandı-sən bu qadağaları pozubsan. Yəni sən yolunu azıbsan, çünki şeytana uyubsan. Bütün bunlar da elə ona görə sənin başına gəlib. Allahın barmağı yoxdur ki, adamın gözünü çıxara. Sən gəl tövbə elə, Alaha tapın!

Elə bil, yatmışdım, ayıldım! İndi Quran oxuyuram, namaz qılıram, Allahın buyruğundan kənara çıxmıram. Yəqin ona görə də, Allaha şükür ki, işlərim yağ kimi gedir...

Ədalət naminə onu demək lazımdır ki, müalicə olunan narkomanların heç də hamısının aqibəti belə müsbət sonluqla bitmir...

Bəli, əziz oxucu! Mənim məqsədim-şahidi olduğum hadisələrdən birini mümkün qədər yığcam danışmaqla "ağ ölüm"ün insanlara və ailələrə gətirdiyi bəlalarla sizləri tanış etmək və Xeyrin Şərə qalib gəlməsi üçün səsləməkdir. Bilirəm ki, hər birinizin qohumlarınız, qonşularınız və tanışlarınız arasında belələri var. İstəyirəm biləsiz ki, narkomaniya və ya alkoqolizm-əgər vaxtı keçməyibsə-uğurla müalicə oluna bilər. Mən, həkim-narkoloqa vaxtında müraciət edənlərin hələ heç birinin peşiman olduğunun şahidi olmamışam.

Hörmətli oxucum! Gəlin, belə Şərə qalib gəlmək üçün yollar axtaraq. Onun yolları isə çoxdu. Ən sadə və asanı isə narkomaniya və alkoqalizmdən əzab çəkənləri tezliklə həkim-narkoloqun yanına gətirmək, ya da ona zəng etməkdir.

Müalicə olunmaq qərarına gələn pasiyentlərə bir-iki kəlmə sözüm var. Qoyun, mən deyim, onlar eşitsin:
-Hörmətli pasiyent!
Siz ömrünüzdə bəlkə də ən vacib qərarlardan birini qəbul etmisiz. Siz bu cəsarətli qərara görə təbrik edirəm. Bu gündən siz narkotiklərdən tam imtina etməklə, yeni həyata qədəm qoyursuz.
Müalicəyə başlayırsız...Onun uğurlu olması isə ən çox Sizin özünüzdən asılıdır.
Amma narkomanların çoxu qarşılarına yaxın adamlarını "müalicə olunuram" adı ilə aldatmaq, vaxt qazanmaqla manevr etmək, ölməmək üçün qanını "yudurtmaq", həbsdən yaxa qurtarmaq, dozanı azaltmaq və sair kimi məqsədlər qoyurlar. Beləəri sonradan tezliklə "büdrəyib" və yenidən öz bəd əməllərinə davam edirlər. Bəziləri isə, dözümsüz və iradəsiz olduqları üçün təkrar narkotikə "düşürlər"...
Uzun müddət narkotik maddə qəbulu fiziki və psixi asılılıq əmələ gətirir. Dərmanlarla müalicə xəstəni yalnız fiziki asılılıqdan çıxarır, ağrıları keçir, yuxu bərpa olunur, iştahası açılır, ovqatı yaxşılaşır, daxili üzvlərdə olan patalogiya aradan qalxır və s. Psixi asılılıqdan çıxmağa isə aylar və illər tələb olumur...

Bu bəladan həqiqətən yaxa qurtarmaq istəyənlərin xoş məramı, iradəsi və kişiliyi olmalıdır. Narkotikdən "qırılmaq" istəyənlər Şeytana qalib gəlir kimi böyük bir qəhrəmanlıq etməlidirlər.

Bəli, əziz oxucu bu gün biz sizə bəşəriyyəti düşündürən, cəmiyyətin ciddi bəlasına çevrilən, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığın ən ağrılı problemlərindən danışdıq.

Qeyd etdik ki, narkomaniyaya qarşı mübarizədə bütövlükdə cəmiyyətin, dövlətin, xalqın, nəhayət, hər bir şəxsin fərdi və birgə fəaliyyətinə, bu cür təhlükəli təzahürlərə qarşı barışmaz mövqeyinə və əməli köməyinə böyük ehtiyac vardır. Narkomanlıq və narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. Bu dəhşətli xəstəlik dinindən, dilindən, irqindən sosial vəziyyətindən, mənşəyindən, vəzifəsindən və s.asılı olmayaraq hamı üçün eyni dərəcədə təhlükəlidir.

Sonda onu da qeyd etmək istərdik ki, yazdığımız metodiki vasitələrlə bir çağırış edək, əziz xalqımızın balaları, yeniyetmələri gəlin, vətənimizi vətəndaşsız, ailələri başsız, anaları övladsız qoyan bu bəla ilə hamılıqla-elmindən, mövqeyindən, dinindən asılı olmayaraq hər kəs bacardığı qədər mübarizə aparaq. Bu, hər birimizin müqəddəs və təxirəsalınmaz vəzifəsi olmalıdır.Vətənimizin, xalqımızın gələcəyini yalnız bu yolla xilas edə bilərik, əziz oxucu!

**Tədbirin sonu "Bəla" filminin nümayişi ilə bitir.**

Filmin nümayişində məqsəd, gənclərin narkomaniya ilə mübarizə məqsədilə maarifləndirilməsi və bu məsələyə olan diqqətinin artırılmasıdır.

**F.Köçərli adına RUK-nın Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

***Dövrü mətbuatda***

**Abbasov R.** Narkomaniyaya qarşı mübarizə hər bir hərbi qulluqçunun vəzifə borcudur // İki sahil. - 2022. - 19 fevral. - № 32. - S. 30.

**Abdullayev A.** Narkomaniya cəmiyyətin sosial bəlasıdır // İki sahil. - 2021. - 27 fevral. - № 38. - S. 30.

**Abdullayeva R**. Narkomaniya: Çətin və erkən ölüm // İki sahil. - 2023. - 1 aprel. - № 55. - S. 30.

Ağ ölüm"ə "Yox" deyək // İki sahil. – 2015. – 1 avqust. - №137. – S. 13.

**Ağayev E**. Ağ ölümə qarşı birlikdə mübarizə aparaq! // İki sahil. - 2022. - 2 iyul. - № 116. - S. 30.

**Aslanov E**. Narkomaniya bəşəriyyət üçün ən böyük bəladır // İki sahil. - 2020. - 2 may. - № 74. - S. 15.

**Aslanov E**. Sintetik narkotiklərin qanunsuz dövriyyəsi: XXI əsrin kabusu // İki sahil. - 2022. - 4 iyun. - № 98. - S. 22.

**Aslanov H**. Narkotiklərlə mübarizədə əlbir olmalıyıq // İki sahil. - 2019. - 9 fevral. - № 27. - S. 11.

Azərbaycanda narkomaniya ilə mübarizə hər gün daha da gücləndirilir // İki sahil. – 2015. - 18 aprel. - № 68. - S. 21.

**Babayev M**. Narkomaniya ilə mübarizədə birlikdə olaq // İki sahil. - 2023. - 28 yanvar. - № 16. - S. 14.

**Babayev M**. Sağlam gələcək üçün...: Lənkəranda narkomaniyaya qarşı mübarizə tədbirləri gücləndirilir // İki sahil. - 2022. - 25 iyun. - № 112. - S. 30.

**Barxudarov B.** Narkomaniya bəşəriyyətin bəlasıdır // İki sahil. - 2017. - 30 dekabr. - № 241. - S. 22.

Böyük təhlükə mənbəyi // İki sahil. - 2022. - 23 aprel. - № 71. - S. 30.

**Cəbrayılov F.** Narkomaniya ümumbəşəri bəladır // İki sahil. – 2018. – 5 may. - № 87. – S. 23.

**Cəfərov Ş**. Narkomaniyaya yox deyək // Azərbaycan Müəllimi. - 2022. - 16 dekabr. - № 49. - S. 9.

**Dilqəmli N**. İşıqlı gələcəyimizi qaralmağa qoymayaq - narkomaniyaya "yox" // Yeni Azərbaycan. - 2022. - 19 fevral. - № 32. - S. 5.

**Əbdul-Qədirov C**. Reabilitasiya mərkəzlərində antinarkotik təbliğat gücləndirilir // İki sahil. - 2022. - 18 iyun. - № 107. - S. 30.

**Əfəndiyeva K**. Gələcəyimizi birlikdə düşünək : Ən doğru seçim narkotiklər haqqında həqiqəti öyrənmək və heç bir halda ondan istifadə etməməkdir! // İki sahil. - 2023. 4 fevral. - № 21. - S. 14.

**Əfəndiyeva K**. Narkomanlıqla mübarizənin əsas məqsədi sağlam mühit və sağlam gələcəkdir // İki sahil. - 2022. - 5 fevral. - № 22. - S. 22.

**Əhmədov E.** Narkomaniya "ağ ölüm"dür // İki sahil. - 2022. - 26 fevral. - № 37. - S. 30.

**Ələddinqızı N.** Ölkəmizdə narkomaniyaya qarşı mübarizə gücləndirilir // Səs. – 2019. – 24 iyul. – 132. – S. 12.

**Ələskərov S.** Narkomaniyaya "yox" deyək // İki sahil. - 2023. - 18 mart. - № 50. - S. 22.

**Əliyev V**. Cəmiyyətin gələcəyi üçün təhlükəni birgə səylərlə dəf etməliyik // İki sahil. - 2019. - 21 sentyabr. - № 173. - S. 22.

**Əliyev Z.** Narkomaniyaya qarşı mübarizə hər birimizin işidir // İki sahil. – 2017. – 19 avqust. – № 149. – S.14.

**Əliyeva Z**. Ağ günümüzü qara edən "ağ ölüm" : Ona qarşı hər birimiz mübarizə aparmasaq, məğlub ola bilərik // Azərbaycan : qəzet. - 2023. - 9 aprel. - № 73. - S. 16.

**Feyzullayev R.** Narkomaniya cəmiyyətin bəlasıdır // İki sahil. – 2019. - 24 avqust. - № 153. – S.14.

Gələcəyimizə sahib çıxaq - Narkotiklərə yox deyək! adlı mədəni - kütləvi tədbir keçirilib // Səs. - 2022. - 7 iyul. - № 119. - S. 5.

**Həsənov H**. Bəşəriyyəti əsarətinə alan bəla // İki sahil. - 2022. - 29 yanvar. - № 17. - S. 29.

**Hüseynov B**. Əsrin faciəsi: Narkomaniya // Xalq qəzeti. - 2022. - 23 yanvar. - № 15. - S. 6.

**Hüseynov O.** Narkotik xassəli bitkilərin məhv edilməsi hər kəsin vətəndaşlıq borcudur // İki sahil. – 2017. – 26 avqust. – №154. – S. 23.

**Hüseynova İ.** Narkomaniya müasir dövrün qlobal problemidir // İki sahil. - 2021. - 3 aprel. - № 57. - S. 14.

**Hüseynova İ**., Mehtiyev A. Narkomaniya - XXI əsrin bəlası // İki sahil. - 2019. - 24 may. - № 94. - S. 13.

**Xəlilova A**. Qlobal bəla ilə qətiyyətli mübarizə // Azərbaycan : qəzet. - 2022. - 25 iyun. - № 133. - S. 9.

**İsmayılqızı X**. "Ağ ölüm" insanlara fəlakət gətirir // İki sahil. - 2019. - 18 aprel. - № 69. - S. 14.

**İsmayılov İ**. "Narkotikaya yox deyək" // İki sahil. - 2019. - 14 sentyabr. - № 168. - S. 14.

**İsmayılov T.** Narkomaniya insan mənəviyyatını alçaldır // İki sahil. 2015. – 15 avqust. - № 147. – S. 15.

**İsmayılova T**. Narkomaniyaya yox! : Ağ ölümlə mübarizədə bir olaq // Respublika. - 2022. - 15 iyul. - № 145. - S. 7.

**İsrafilova G**. Narkomaniyaya “yox” deyək! // İki sahil. - 2018. - 29 dekabr. - № 248. - S. 22.

**Kərimli A**. Sağlamlığımızı qoruyaq - narkomaniyaya “yox” deyək // İki sahil. - 2019. - 7 dekabr. - № 227. - S. 23.

**Qarayeva S**. Narkotik maddələrə qarşı mübarizə sərtləşdirilir : Əhliman Əmiraslanov: "Narkomanlığa qarşı qətiyyətlə mübarizə aparan ölkələrdən biri də Azərbaycandır" // 525-ci qəzet. - 2022. - 20 may. - № 87. - S. 5.

**Qədirova S**. Narkomaniya ilə mübarizə vətəndaşlıq borcumuzdur // İki sahil. - 2023. - 8 aprel. - № 60. - S. 30.

**Qəniyev E**. Bəlanın ağı-qarası olmur // Azərbaycan : qəzet. - 2022. - 8 iyun. - № 119. - S. 8.

**Qurbanov F**. Narkomaniya - əsrin bəlası // İki sahil. - 2019. - 26 yanvar. - № 17. - S. 9.

**Mehdiyev A**. Narkotik asılılığın susdurulmasının im-munokimyəvi üsulu // İki sahil. 2017. – 20 may. - № 87. – S.15.

**Məmmədova M**. Yaşamaq istəyirəm... : Müalicədə olan narkotik aludəçisinin dilindən // Səs. - 2022. - 3 avqust. - № 136. - S. 12-13.

**Məmmədova S.** "Ağ ölüm"ün zülmət yolu : Əsrin bəlası olam narkomaniyaya qarşı maarifləndirmə tədbirləri cəmiyyətin əsas vəzifələrindən biridir // Azərbaycan. – 2018. – 3 iyun. – S. 5.

**Məmmədova Z.** Narkotik vasitələrdən istifadə geniş ictimai təhlükə mənbəyidir // İki sahil. – 2018. – 17 mart. - № 51. – S. 154.

**Mirhəsimov B.** Narkomaniya ilə mübarizə sağlam həyata təminatdır // İki sahil. - 2018. - 13 yanvar. - **№ 7**. - S. 14.

**Mirzəyev N**. Narkomaniya bəşəri bəladır... // İki sahil. - 2022. - 15 mart. - № 47. - S. 6.

**Muxtarov T.** Narkotiklərə qarşı qətiyyətli mübarizə davam etdirilir // İki sahil. - 2021. - 3 iyul. - № 116. - S. 15.

**Muradov N**. Narkomaniya bəşəriyyət üçün təhlükə mənbəyidir // Respublika. - 2023. - 15 yanvar. - № 9. - S. 7.

Narkomaniya - bəşərin ən qorxulu bəlası!: Narkomaniyaya qarşı mübarizə hər bir hərbi qulluqçunun vəzifə borcudur // İki sahil. - 2019. - 31 avqust. - № 158. - S. 15.

Narkomaniya bəşəriyyəti düşündürən ən böyük problemdir // İki sahil. – 2015. – 21 fevral. - № 34. - S. 30.

Narkomaniya dövrün bəlasıdır // İki sahil. - 2018. - 6 oktyabr. - № 189. - S. 15.

Narkomaniya ilə mübarizə ümumxalq işinə çevrilməlidir // İki sahil. – 2018. – 22 fevral. - № 35. – S. 15.

Narkomaniya**ya qarşı mübarizə** başlıca vəzifədir // İki sahil. - 2023. - 14 yanvar. - № 7. - S. 14.

Narkomaniyaya qarşı mübarizə əməli nəticələr verir // İki sahil. - 2020. - 22 fevral. - № 36. - S. 15.

Narkomaniyaya və erkən evliliyə yox deyək adlı tədbir keçirilib // 525-ci qəzet. - 2022. - 13 may. - № 82. - S. 6.

Narkomanlığa qarşı mübarizə ümumdövlət vəzifəsidir // İki sahil. - 2018. - 22 sentyabr. - № 179. - S. 14.

Narkotiksiz həyat: Ən doğru seçim narkotiklər haqqında həqiqəti öyrənmək və heç bir halda ondan istifadə etməməkdir! // İki sahil. - 2018. - 27 oktyabr. - № 204. - S. 23.

**Nicat.** Narkotik vasitələrə qarşı mübarizə sərtləşdirilir // Yeni Azərbaycan. - 2022. - 20 may. - № 88. - S. 5.

**Nuriyev Q**. Əsrin bəlası // İki sahil. - 2023. - 26 yanvar. - № 14. - S. 8.

**Rasimqızı R**. İnsan həyatını cəhənnəmə çevirən bəla // İki sahil. - 2022. - 28 aprel. - № 74. - S. 8.

**Rasimqızı R**. Narkotikdən qorunmağın ən optimal yolu: Bunu hər kəs bilirmi? // İki sahil. - 2022. - 23 iyun. - № 110. - S. 6.

**Rüstəmova R.,** İbrahimova R. Narkotiksiz, siqaretsiz, alkoqolsuz sağlam həyata doğru // Təhsil problemləri. – 2018. – 16-23 yanvar. - № 5/6. – S. 5.

Sağlam cəmiyyət, sağlam gələcək // İki sahil. - 2018. - 11 avqust. - № 151. - S. 14.

**Salmanlı R**. Ağ ölüm millətin sağlam həyat tərzi üçün çox təhlükəlidir // Azərbaycan : qəzet. - 2022. - 14 iyul. - № 145. - S. 8.

**Salmanlı R**. Narkomanlığa qarşı mübarizədə ailələrin rolu əvəzsizdir // Azərbaycan : qəzet. - 2022. - 17 fevral. - № 36. - S. 7.

**Səfərov E**. “Mən həyatı seçirəm”: STOP // İki sahil. - 2019. - 30 noyabr. - № 222. - S. 14.

**Səfiyev A.** Narkomaniyaya qarşı mübarizə ümumxalq işidir // İki sahil. - 2020. - 11 aprel. - № 59. - S. 14.

**Süleymanova S**. Sağlam həyat naminə narkotikə "yox" deyək! // İki sahil. - 2022. - 22 yanvar. - № 12. - S. 29.

**Şahverdiyev F.** Narkomaniyaya qarşı mübarizə davamlı və sistemli şəkildə aparılır // İki sahil. – 2018. – 31 mart. - № 64. – S.30.

**Şahverdiyev F.** Narkomaniyaya qarşı mübarizə sağlam mühit və sağlam gələcəkdir // İki sahil. – 2018. – S. 14.

**Şahverdiyev F.** Narkomaniyaya qarşı mübarizədə atılan addımlar qətiyyətlidir // İki sahil. – 2018. – № 141. – 28 iyul. – S.14.

**Şahverdiyev F**. Narkomanlığa qarşı mübarizədə atılan addımlar qətiyyətlidir // İki sahil. - 2022. - 12 yanvar. - № 5. - S. 6.

**Şahverdiyev F.** Narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsidir // İki sahil. – 2017. – 7 yanvar. – 7 yanvar. - № 2. – S. 14.

**Şahverdiyev F**. Narkotik sərhədsiz fəlakətdir // İki sahil. - 2022. - 6 avqust. - № 139. - S. 21.

**Şəfiyeva H**. Narkomaniyanın müalicəsi necə aparılmalıdır? // Səs. - 2022. - 15 dekabr. - № 230. - S. 16.

**Yaqubov Q.** Narkomaniya ilə mübarizə gələcəyə nikbin baxmağa əsas verir // İki sahil. – 2017. 16 dekabr. - № 231. – S. 23.

**Narkomaniya əsrin bəlasıdır**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**